AZƏRBAYCAN RESPUBLİKASININ
RUSİYA FEDERASİYASINDAKI
SƏFİRLİYİ

ПОСОЛЬСТВО
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
В РОССИЙСКОЙ ФЕДЕРАЦИИ

25009, Moskva şəh., Leontyevskiy dön., 16
5009, г. Москва, Леонтьевский пер., 16

e-mail:
embassy@azembassy.msk.ru

tel./тел.: (+7495) 629-16-49, 629-43-32
faks/факс: (+7495) 695-50-72

119-2 «06» 07 2023

Qafqaz Müsəlmanları İdarəsinin sədri
Şeyxülislam Allahşükür Paşazadəyə

Hörmətli Şeyx həzrətləri!

Ünvanladığınız təbrikə görə Sizə dərin minnətdarlığımı bildirir və öz növbəmdə Sizi dünya müsəlmanlarının mənəvi birlik və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Xalqımız əsrlər boyu tarixi köklərinə və adət-ənənələrinə bağlılığı ilə seçilmiş, ən mürəkkəb dövrlərdə belə, öz milli-mədəni dəyərlərini qoruyub saxlamışdır. Müsəlman aləmi ilə mənəvi həmrəylimizi nümayiş etdirən Qurban mərasimləri hər il ölkəmizdə böyük ruh yüksəkliyi ilə qeyd olunur, Allahın adına qurbanlar kəsilir, dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir.

Beynəlxalq miqyasda tanınmış nüfuzlu din xadimi kimi Siz uzun illər ərzində həyata keçirdiyiniz səmərəli fəaliyyətinizlə bu istiqamətdə görülən işlərə, ölkəmizdə din-dövlət münasibətlərinin düzgün şəkildə qurulmasına, dini-mənəvi dəyərlərimizin yenidən canlanmasına, dinlərarası dialoqa, əsrlər boyu Azərbaycan cəmiyyətinə xas olan tolerantlıq ənənələrinin möhkəmlənməsinə əvəzsiz töhfələr vermisiniz.

Bir daha Sizi Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür, uca Yaradan qatında bütün dualarınızın qəbul olunmasını diləyirəm.

hörmətlə!

Fövqəladə və Səlahiyyətli
Səfir

P. Bülbül

Polad Bülbüloğlu

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ
DAXİL № 306
10. 07 2023